# AZƏRBAYCAN RESPUBLİKASI QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİNİN KOLLEGİYASININ QƏRARI

**№ 40**

**Bakı şəhəri** **“26” dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Kollegiyasının “Bitki adı ilə adlandırılan yağlara dair minimum keyfiyyət və təhlükəsizlik tələbləri”nin, “Heyvan mənşəli qida məhsullarında baytarlıq preparatlarının təsnifatı üzrə farmakoloji aktiv maddələrin qalıq miqdarına dair sanitariya normaları və qaydaları”nın və “Qida məhsullarında çirkləndirici maddələrin yolverilən maksimum miqdarına dair sanitariya normaları və qaydaları”nın təsdiq edilməsi barədə” 2020-ci il 18 dekabr tarixli 20 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 2.0.3-cü, 3.0.2-ci və 4.0.1-ci yarımbəndlərini və 5.10 – 5.12-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Kollegiyası **qərara alır:**

**1.** Agentliyin Kollegiyasının “Bitki adı ilə adlandırılan yağlara dair minimum keyfiyyət və təhlükəsizlik tələbləri”nin, “Heyvan mənşəli qida məhsullarında baytarlıq preparatlarının təsnifatı üzrə farmakoloji aktiv maddələrin qalıq miqdarına dair sanitariya normaları və qaydaları”nın və “Qida məhsullarında çirkləndirici maddələrin yolverilən maksimum miqdarına dair sanitariya normaları və qaydaları”nın təsdiq edilməsi barədə” 2020-ci il 18 dekabr tarixli 20 nömrəli Qərarında dəyişiklik təsdiq edilsin *(əlavə olunur).*

**2.** Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi məqsədilə 3 (üç) gün ərzində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

**3.** Kollegiyanın məsul katibi **Asif Əbdüləzimov** bu Qərarın surətinin aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**4.** Bu Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Əsas:** Agentliyin Kollegiyasının 2023-cü il 26 dekabr tarixli iclas protokolu.

**Kollegiyanın sədri,**

**Azərbaycan Respublikası**
**Qida Təhlükəsizliyi Agentliyinin sədri** **Qoşqar Təhməzli**

*Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Kollegiyasının "26" dekabr 2023-cü il tarixli 40 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi Kollegiyasının "Bitki adı ilə adlandırılan yağlara dair minimum keyfiyyət və təhlükəsizlik tələbləri"nin, "Heyvan mənşəli qida məhsullarında baytarlıq preparatlarının təsnifatı üzrə farmakoloji aktiv maddələrin qalıq miqdarına dair sanitariya normaları və qaydaları"nın və "Qida məhsullarında çirkləndirici maddələrin yolverilən maksimum miqdarına dair sanitariya normaları və qaydaları"nın təsdiq edilməsi barədə" 2020-ci il 18 dekabr tarixli 20 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında:**

1. Həmin Qərarla təsdiq edilmiş "Qida məhsullarında çirkləndirici maddələrin yolverilən maksimum miqdarına dair sanitariya normaları və qaydaları"n 1 nömrəli əlavəsinə aşağıdakı redaksiyada 4.3-cü bənd əlavə edilsin:

| | | |
|---|---|---|
| **4.3** | **3-monoxlorpropandiol (3-MPCD) və 3-MPCD-nin yağ turşusu efirlərinin cəmi (3-MPCD kimi ifadə olunur)** | |
| 4.3.1 | Birbaşa bazara yerləşdirilən və ya qida məhsullarında inqrediyent kimi istifadə olunan, aşağıdakı kateqoriyalara aid edilən duru və bərk bitki yağları, balıq yağı və digər dəniz canlılarından əldə olunan yağlar (4.3.2-ci yarımbənddə göstərilən məhsullar və natural sıxma zeytun yağları istisna olmaqla): | |
| | kokos, qarğıdalı, raps (kolza) toxumu, günəbaxan, soya, palma çəyirdəyindən əldə edilən duru və bərk yağ, zeytun yağları (rafinasiya edilmiş zeytun yağı və natural sıxma zeytun yağlarının qarışığı) və bu kateqoriyaya aid edilən duru və bərk yağların qarışıqları; | 1250 |
| | digər bitki yağları (o cümlədən, cecədən alınmış zeytun yağı), balıq yağları və digər dəniz canlılarından əldə olunan bərk və duru yağlar və bu kateqoriyaya aid edilən duru və bərk yağların qarışıqları; | 2500 |

| | | |
|---|---|---|
| | Bu yarımbənddə göstərilən duru və bərk yağların qarışığı | Yağ qarışıqlarında inqrediyent qismində istifadə olunan duru və bərk yağların 3-MPCD göstəriciləri həmin məhsullar üçün müəyyən edilən YMM-ə uyğun olmalıdır. Buna görə, 3-MPCD kimi ifadə olunan 3-monoxlorpropandiol (3-MPCD) və 3-MPCD-nin yağ turşusu efirlərinin cəminin həddi bu Qaydaların 4.2.1 (c) yarımbəndinə görə hesablanmış həddi aşmamalıdır. |
| 4.3.2 | Uşaq qidaları və körpə və erkən yaşlı uşaqların qidalanması üçün nəzərdə tutulan emal olunmuş taxıl əsaslı əlavə qidaların hazırlanmasında istifadəsi nəzərdə tutulan duru və bərk bitki yağları, balıq yağları və digər dəniz canlılarından əldə olunan yağlar | 750 |
| 4.3.3. | Qida formulları və körpə və erkənyaşlı uşaqlar üçün tibbi məqsədli qida məhsulları (tozşəkilli) | 125 |
| 4.3.4. | Qida formulları və körpə və erkənyaşlı uşaqlar üçün tibbi məqsədli qida məhsulları (maye halında) | 15 |